# Milli dəyərlərimizi yaşadan əsərlər

***Xalqımızın musiqi mədəniyyəti bütün tarixi dövrlərdə, xüsusilə XX əsrdə böyük inkişaf yolu keçmişdir. Bu inkişaf mədəniyyətimizə görkəmli şəxsiyyətləri, sənət korifeylərini, dahi və görkəmli bəstəkarları bəxş etmişdir. Azərbaycan bəstəkarlıq məktəbinin yetirmələrindən biri də Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, istedadlı bəstəkar, pedaqoq Nazim Quliyevdir.***

Nazim hələ uşaqlıqdan Naxçıvanda ziyalılar ailəsində böyük yaradıcılıq muhiti ilə əhatə olunmuş, onda musiqiyə, incəsənətə maraq oyanmışdı. Baba ocağında Xalq artisti Əkbər Qardaşbəyov, istedadlı rəssam Abuzər Qardaşbəyov qardaşlarının, orta məktəbdə isə musiqi müəllimi Məmməd Məmmədovun yaradıcılıq fəaliyyəti Nazimi ovsunlamışdı. Musiqiyə olan bu istək onu indiki Heydər Əliyev adına Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində fəaliyyət göstərən tar dərnəyinə gətirib çıxardı. Unudulmaz sənətkar Səfər Rəcəbovdan tar dərsi almağa başladı. Bacarığı və istedadı ilə dərnək üzvləri arasında seçildi. Daha sonra Nazim Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbinin tar sinfinə daxil oldu. Musiqi məktəbində oxuduğu illərdə qabiliyyətini göstərərək qəlbində yaratdığı nəğmələri nota çevirib kiçik həcmli əsərlər də yazdı. Gənc musiqiçi, həm də Naxçıvan Mərkəzi pioner və məktəblilər evinin "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının konsertmeysteri kimi fəaliyyət göstərirdi.

Orta və musiqi məkəblərini bitirən Nazim Quliyev Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin xalq çalğı alətləri şöbəsinin tar sinfinə qəbul olundu. Bu musiqi ocağında bir sıra adlı-sanlı müəllimlər, gözəl muğam bilicilərindən dərs aldı.

... 1971-ci ildə Nazim Quliyev əməyinin ilk bəhrəsini gördü. Bakı şəhərində keçirilən "Oxu, tar" müsabiqəsinə təqdim etdiyi "Andiçmə" mahnısına görə birinci dərəcəli diploma layiq görüldü. Həmin mahnı bir müddət sonra münsiflər heyətinin üzvü, Xalq artisti İslam Rzayevin ifasında SSRİ Dövlət Səsyazmalar evində lentə alındı.

Nazim Quliyev yaradıcılıq yolu ilə inamla irəliləyirdi. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Mahnı və Rəqs Ansamblında tarzən kimi çalışan Nazim təyinatla Ordubad şəhər uşaq musiqi məktəbinə müəllim göndərildi, daha sonra Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində musiqi redaktoru vəzifəsində çalışdı.



1978-ci ildə Nazim Quliyev yüksək ifaçılıq bacarığı ilə uğurla imtahan verib Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına qəbul olundu. Bu ali musuqi məktəbində görkəmli pedaqoq, bəstəkar, Xalq artisti, professor Səid Rüstəmovun sinfində oxumaqla yanaşı, bəstəkar Afaq Cəfərovadan bəstəkarlıq dərsləri aldı. Yaradıcılıq fəaliyyətini davam etdirərək bu illərdə yazdığı fortepiano üçün "6 miniatür", "9 prelüd", "Variasiyalar", "Nəqşi-cahan" süitası, B.Vahabzadənin sözlərinə bəstələnmiş "Səninlə", M.Arazın sözlərinə "Dağlar küsüb" romanslarını, M.P.Vaqifin sözlərinə "Adını deməərəm", Aşıq Ələsgərin sözlərinə "Çərşənbə günündə" , A. Qasımovun sözlərinə "Ordubad bağları" mahnıları ilk nümunələr kimi əsərləri sırasına daxil olundu.

Təhsilini başa vuran Nazim Quliyev təyinatla Üzeyir Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi Məktəbinə müəllim göndərildi. Burada dərs deməklə yanaşı yeni yaradılan Naxçıvan Dövlət Filarmoniyasının bədii rəhbəri oldu.

Nazim Quliyev Naxçıvan Dövlət Pedaqoji İnstitutunda yaranan musiqi və təsviri sənət kafedrasına müdir seçildi. Bu dövrdə kafedranın bazasında yeni musiqi kafedraları yarandı və Naxçıvan Dövlət Universitetində konservatoriya ixtisaslarının açılması ilə bağlı Naxçıvan MR rəhbərliyinə və Azərbaycan Respublikasının Təhsil Nazirliyinə müraciət qəbul olundu. Bu əsasda 1997- ci ildə Naxçvan Dövlət Universitetinin qəbul planına konservatoriya ixtisasları daxil edildi.

Nazim Quliyev 1998-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan təşkilatının sədri, 1999-cu ildə Bakıya köçməsi ilə əlaqədar M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini, 2000-2003-cü illərdə Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin direktoru, 2004-2006-cı illərdə Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının direktoru vəzifələrində çalışdı.

Bəstəkarın "Naxçıvan kantatası" Azərbaycan Dövlət Xor Kapellasının, "Cavidi düşünərkən" əsəri Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin, tar ilə simfonik orkestr üçün "Nəqşi cahan" konserti və digər əsərləri Azərbaycan Dövlət Televiziya və Radiosunun Simfonik Orkestri, Dövlət Xalq Çalğı Alətləri Orkestri, F. Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının ifasında səslənmiş və repertuara daxil edilmişdir.

Bəstəkar 100-dən artıq iri və kiçik həcmli musiqi əsərinin müəllifidir. Daim yaradıcılıq axtarışlarında olan Nazim Quliyev iri formalı janrlara da müraciət etmişdir. 2013-cü ildə yazdığı iri həcmli "Xocalı" operası onun yaradıcılığında xüsusi yer tutur.

Hazırda bəstəkar günün tələblərinə cavab verən, süjet aktuallığı ilə fərqlənən, milli koloriti özündə ehtiva edən əsərlər üzərində işini davam etdirir. Belə irihəcmli əsərlərdən biri "Nəqşi-cahan" baletidir. Müəllifin yenicə tamamladığı bu əsər doğma torpağa olan hədsiz sevgi və məhəbbətin ecazkar musiqi ilə ifadəsidir.

Nazim Quliyev bu gün də pedaqoji və yaradıcılıq fəaliyyətini davam etdirir. "Azərbaycan professional musiqisində çoxsəslilik", tar üçün "Qamma və arpeciolar" elmi-nəzəri, "Naxçıvan musiqi mədəniyyəti tarixindən" adlı 3 monoqrafiya, 4 metodik tövsiyə, "Bəstəkar Məmməd Məmmədov", "Saçlar ağarmasın, neyləsin" və digər kitabların, onlarca elmi məqalənin müəllifidir. Bir sıra konqres, konfrans və yubileylərdə elmi məruzələrlə çıxış etmişdir.

Dövlətimiz Nazim Quliyevin əməyini yüksək qiymətləndirmişdir. 2000-ci ildə o, Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" adına layiq görülmüşdür. Azərbaycan Milli Konservatoriyasının dosenti və Respublika İncəsənət Gimnaziyasının müəllimi olaraq gənc musiqiçilər nəslinin yetişdirilməsində səmərəli fəaliyyət göstərir.

***Afət SADIQOĞLU,***
***"Xalq qəzeti"***